04.06.2018

## Qəbul imtahanlarının birinci mərhələsində 400-700 arasında bal toplayan XI sinif şagirdləri ilə görüş keçirilib.

İyun ayının 1-də Rayon Təhsil Şöbəsinin akt zalında Azərbaycan Respublikası DİM tərəfindən keçirilən qəbul imtahanlarının birinci mərhələsində 400-700 arasında bal toplayan XI sinif şagirdləri ilə görüş keçrilib. Görüş tədbirində yüksək bal toplamış şagirdlər, təhsil müəssisələrinin rəhbərləri, rayon Təhsil Şöbəsinin idarəetmə aparatının məsul əməkdaşları iştirak edib. Görüş tədbirində qəbul imtahanlarının birinci mərhələsinin yekunları geniş müzakirə edilib, hər məzunun nəticələri geniş təhlil edilib. Təhsil müəssisəsinin əldə etdiyi nəticələr keçən illə müqaisə olunub. Tədbirdə Oğuz Rayon Təhsil Şöbəsinin müdiri E .V.Kərimov müzakirələri yekunlaşdırib və qəbul imtahanlarının ikinci mərhələsində, habelə buraxılış imtahanılarında qarşıda duran vəzifələrdən danışıb.